# Poçt təhlükəsizliyinin idarə edilməsi haqqında

# Q A Y D A L A R

**B A K I – 2011**

# Poçt təhlükəsizliyinin idarə edilməsi haqqında

**Q A Y D A L A R**

## 1.Ümumi müddəalar

**1.1.**Bu Qaydalar Ümumdünya Poçt İttifaqının (bundan sonra – ÜPİ adlandırılacaq) Aktları, “Poçt haqqında” Azərbaycan Respublikasının Qanunu, “Poçt göndərişlərində partlayıcı maddələrin aşkar edildiyi halda fövqəladə tədbirlərin planlaşdırılması və təşkili”nə dair ÜPİ-nin normativ sənədləri, “Partlayıcı qurğuların əlaməti olan poçt göndərişlərinin aşkar edilməsi”nə dair Regional Rabitə və Əməkdaşlıq Təşkilatının (bundan sonra- RRƏT adlandırılacaq) normativ sənədi, “Poçt rabitəsi Qaydaları”, “Tərkibində kimyəvi, bakteroloji və partlayıcı maddələr olan göndərişlərlə bağlı hadisələrin idarə edilməsinə dair” Təlimat, habelə Azərbaycan Respublikasının digər Qanunvericilik Aktlarına uyğun olaraq hazırlanmış və “Azərpoçt” MMC-də (bundan sonra- Cəmiyyət adlandırılacaq) poçt göndərişlərinin (bundan sonra – PG adlandırılacaq), obyektlərin, işçilərin və istifadəçilərin təhlükəsizliyinin təmin edilməsinin ümumi prinsiplərini və qaydalarını müəyyənləşdirir.

## 2. Poçtun təhlükəsizliyinin əsasları

**2.1.** ÜPİ-nin Konvensiyasında bu ittifaqa üzv olan ölkələr qarşısında poçt təhlükəsizliyi üzrə aşağıdakı neqativ hərəkətlərin qarşısının alinması, təqsirkarların təqib edilməsi və cəzalandırılması üçün lazımi tədbirlərin görülməsi barədə aşağıda göstərilən öhdəliklər qoyulmuşdur:
**2.1.1.** Konvensiya üzrə və üzv ölkələrin qanunvericilik aktları ilə qadağan edilən narkotik, psixotrop və ya partlayış törədən yanacağın, həmçinin digər növdən olan təhlükəli maddələrin PG vasitəsilə göndərilməsinə yol verilməməsi;
**2.1.2.** PG-də pedofiliya və uşaq parnoqrafiyasına aid əşyaların göndərilməsinin qarşısının alınması.
**2.2.** Poçt operatorlarının əsas vəzifəsi istifadəçilərdən qəbul edilmiş PG-lərin təhlükəsiz, sürətli və etibarlı daşınması, çeşidlənməsi və çatdırılmasıdır.
**2.3.** “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun 22.1. bəndinə əsasən PG-lərin obyektlərin, işçilərin və istifadəçilərin təhlükəsizliyini təmin etmək məqsədilə poçt rabitəsi operatoru qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilməlidir.
**2.4.** Poçt operatorlarının və onların müvafiq xidmətlərinin vacib vəzifələrindən biri də işçi personalının, poçt istifadəçilərinin və poçt müəssisələrinə gələn digər insanların təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar profilaktik tədbirlərin hazırlanması və həyata keçirilməsi,

həmçinin gözlənilməyən hadisələrin qarşısının alinması üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlərin işlənib hazırlanması və istənilən ictimai təhlükənin , o cümlədədn partlayış hadisəsinin və partlayışın pzünün qarşısını almaqdır.
**2.**5. Hər bir poçt işçisi öz peşəsinə məsuliyyət hissi ilə yanaşmalı, qəbul etdiyi, çeşidlədiyi və çatdırmaq istədiyi bütün PG-lərə qarşı həddindən artıq diqqətli olmalı, şübhəli PG ilə və ya şübhəli poçt istifadəçiləri ilə rastlaşdıqda bu təlimatın müvafiq bəndlərinə uyğun olaraq hərəkət etməlidir.

## 3. Poçt göndərişlərinin qəbulu zamanı təhlükəsizlik tədbirləri

**3.1.** Bağlamalar, banderollar, kiçik paketlər və qiyməti bəyan olunmuş PG- lər istifadəçilərdən onların şəxsiyyətini tələb edən sənəd tələb edilməli, əsaslı şübhə yarandıqda isə onların özləri və göndərişləri barəsində aidiyyəti orqanlara tabe olduqları rəhbərlərə dərhal məlumat verilməlidir.
**3.2.** PG-lər qablaşdırılarkən onun içərisində göndərilən əşyalar diqqətlə yoxlanılmalı, qablaşdırılma əşyanın xarakterinə, yolun (məsafənin) uzunluğuna və göndərilmə şərtlərinə uyğun olmalı, həmçinin daşınma zamanı zədələnmənin, bağlanmanın üzlüyünü zədələnmədən onun içərisindəkilərin çıxarılmasının, diğər PG-nin korlanmasının və poçtla təmasda olan işçilərə hər hansı bir zərər vurulmasının qarşısını almalıdır.
**3.3.** “Poçt rabitəsi qaydalarına” və “Beynəlxalq poçt göndərişlərinin qəbulu üzrə Rəhbərliyə” uyğun olaraq qəbul edilən PG-lər qablaşdırılarkən maye və asanlıqla maye halına keçən maddələr qapalı, axmanın qarşısını tam alan taranın ( karton qutu, yeşik və s.) içərisinə qoyularaq göndərilməli, taranın divarları ilə əşya arasında qalan boşluq kəpək, pambıq,yonqar,penoplast və sş ilə doldurulmalıdır
**3.4.** Poçtun daşınmasını həyata keçirən nəqliyyat vasitəsində kənar əşya və yüklərin, sərnişinlərinin aparılması, həmçinin təyin edilmiş marşurutdan kənarlaşması qəti qadağandır.
**3.5.**Daxil olan poçt, müşayətçidən qəbul edilərkən poçt kisələrinə və bağlamalara diqqətlə vizual baxış keçirilməli və aşkar olunan neqativ faktlar “Poçt rabitəsi qaydaları”na, həmçinin bu qaydaların tələblərinə uyğun olaraq sənədləşdirilməli və digər lazımi təhlükəsizlik tədbirləri görülməlidir.

## 4. İçərisində kimyəvi, bakteroloji, psixotrop, narkotik və s. maddələrin olması ehtimalı olan poçt göndərişlərinin əlamətləri

**4.1.** Aşağıdakı PG- lər öz xarakterik əlamətlərinə görə poçt işçilərində şübhə yarada bilər:
**4.1.1.** PG- nin üzərində yağ ləkələri olduqda;
**4.1.2.** Qeyri- adi qoxu və rıng olduqda;
**4.1.3.** Müəyyən tozlar və dənəvər maddələrlə üzləşdikdə;
**4.1.4.** Qablaşdırılma fərqli və son dərəcə səylə həyata keçirildikdə;
**4.1.5.** Geri ünvan göstərilmədikdə;
**4.1.6.** Təyinat ünvanının son məntəqəsinin adı çap şirifləri ilə göstərildikdə;
**4.1.7.** Üzərində "Şəxsən" qeydi olduqda;
**4.1.8.** Bir hissəsi digər hissəsinə nisbətən ağır və ya qabarıq formada olduqda;
**4.1.9.**Əvvələr içləmiş işçilərin adına ünvanlandıqda;
**4.1.10.** Qurğu mexanizmi (saat və s.) olduqda.

## 5.İçərisində kimyəvi, bakteroloji, psixotrop, narkotik və s. maddələrin olması ehtimalı olan poçt göndərişləri ilə davranma

**5.1.** Şübhəli PG-lərlə rastlaşdıqda aşağıdakı qaydada hərəkət edilməlidir:
**5.1.1.** PG-nin işlənməsi və ya çeşidlənməsi dərhal dayandırılmalıdır;
**5.1.2.** Lüzumsuz səs- küy və ya vahimə yaradılmamalıdır.
**5.2.**İşçinin tabe olduğu rəhbərlik dərhal məlumatlandırılmalıdır.
**5.3.** PG-nin hansı qoxuya malik olduğunu təyin etmək məqsədilə onu iyləmək qadağandır
**5.4.**Şübhə yaradan PG əzilməməli, qatlanmamalı, başqa şəxslərə göstərilməyə cəhd edilməməlidir.
**5.5.** Şübhəli PG digər göndərişlərdən ayrilmalı, hermatik plastik paketə qoyulub izolə edilmiş yerdə saxlanmalıdır.
**5.6.** Şübhəli PG-ni çeşidləyərək istifadə edilən əlcək və digər əşyalar 3%- li xlor məhlulu ilə təmizlənməlidir.
**5.7.**Əllər sabunla bir neçə dəfə yuyulmalıdır.
**5.8.** Əgər iş yerində kondisioner və ya digər hava təmizləyici qurğular varsa, onlar söndürülməli, pəncərə və qapılar bağlanmalıdır.
**5.9.** Fövqəladə Hallar Nazirliyinin (bundan sonra FHN) əməkdaşları və səhiyyə işçiləri dərhal dəvət edilməlidir.

**5.10.** Şübhəli poçt göndərişi ilə təmasda olan bütün işçilər müəyyənləşdirilməli və onların siyahısı tələb olunan orqanlara təqdim edilməlidir.
**5.11.** Şübhəli poçt göndərişi ilə təmasda olarkən istifadə edilmiş bütün geyim əşyaları, o cümlədən poçtun çeşidlənməsində istifadə olunan adlı əşyalar plastik kisəyə qoyularaq lazımi orqanlara təqdim etmək üçün ayrıca yerdə saxlanmalıdır.
**5.12.** Növbəti göstəriş alana qədər iş yeri tərk edilməməlidir.

## 6. Poçt göndərişlərində göndərilmə ehtimalı olan bioloji zəhərləyici maddələr

**6.1**. Poçt göndərişlərində göndərilmə ehtimalı olan bioloji zəhərləyici maddələr aşağıdakılardır:

- Qara yara (sibir xorası);
- Taun;
- Çiçək və s.

**6.2.** Qara yaranın (sibir xorasının) təsnifatı:

Qara yara insanlara heyvanlaradan keçən bakteroloji xəstəlikdir.

- Qızdırma;
- Süstlük;
- Yorğunluq;
- Öskürmək;
- Sinə ağrıları.

**Kliniki xarakteri:**

- Dərinin, ağ ciyərin və ya mədə-bağırsaq traktının bakterial infeksiyası.

**Xəstəliyin müalicəsi:**

- İnkubasiya dövrü 1-7 gündür
- Xəstəiyin ilk günündın antibiotiklərlə dərhal müalicəyə başlanması onun ölümlə nəticələnməsinin qarşısını müəyyən qədər alır;
- 18 ay üçün 6 dozadan ibarət peyvəndlənmə üsulu mövcuddur;
- Bu cürə peyvənd dəri xorasının yaranmasının qarşısını alır və ağ ciyər xorasının müalicəsində effektlidir

**Yoluxmanın qarşısının alınmasının effektli vasitələri:**

- Yoluxmuş əşyaları 30 dəqiqə və daha artıq qaynatmaq və ya digər qoruyucu vasitələrdən istifadə etmək
- Xəstəliyin hüceyrələrinin məhv edilməsi üçün xlor məhlulu effektlidir.

## 7. İçərisində partlayıcı qurğu (maddə) ehtimalı olan poçt göndərişlərinin əlamətləri

**7.1.** Aşağıdakı PG-lər öz xarakterik əlamətlərinə görə poçt işçilərində şübhə yarada bilər:
**7.1.1.**Qablaşdırma xarakterinə uyğun olmayan çəkiyə malik olması, yəni ölçüsünə görə çəkiyə malik olması;
**7.1.2.** Məktubun ağırlıq mərkəzinin hər hansı yan tərəflərdən birində olması;
**7.1.3.** Yağ ləkələri və qeyri- adi qoxunun olması;
**7.1.4.** Metal elementlərin və ya onların aşkar çıxıntılarının mövcud olması;
**7.1.5.** Əl vurarkən PG-nin içərisində məftillərin mövcudluğunun hiss edilməsi;
**7.1.6.** Məktubun, banderolun və ya kiçik paketin xüsusi diqqətlə qablaşdırılması ( üzərində yapışqanlı lent və ya iplə sarınma);
**7.1.7.** Kustar yolla əldə düzəldilmiş zərflərdən istifadə olunması;
**7.1.8.**Pg-nin içərisində sərbəst şəkildə yerini müxtəlif istiqamətlərə dəyişən dənəvari elementlərin və ya toz halında olan maddələrin mövcüd olması
**7.1.9.** Üzərində (qabında) kiçik ölçülü dəlik-deşiklərin olması;
**7.1.10.** Qəbul edilmiş normativlərdən fərqli olan ünvan yazılışı hallarının olması;
**7.1.11.** İçərisindəkilərin F.107 siyahısı və ya CN 23 gömrük bəyannaməsinin olmaması;
**7.1.12.** Üzərində geri ünvanın göstərilməməsi və ya oxunması mümkün olmayan tərzdə yazılması hallarının olması;
**7.1.13**.Üzərində "Şəxsən", "Məxfi", "Özünə verməli","Ehtiyatla", "Diqqət şüşə" və s. qeydlərin olması və ya təyinat məntəqəsinin adının çap şrifləri ilə yazılması.
**7.1.14.** İçərisində tıqqıltı, cingilti və ya qeyri- adi yad səslərin mövcud olması.
**7.2.** İçərisində partlayıcı qurğu ehtimal olunan poçt göndərişinin əlamətləri aşağıdakılardır:

-Yağ ləkələri;
-Geri ünvanın göstərilməsi;
-Natamam ünvanın göstərilməsi;
-Tələb olunandan artıq vurulmuş markalar;
-Qısaldılmış göstəricilər;
-Məftil, folqa, üz qabığının kiçik ölçülü cırıqları;
-Həddən artıq qablaşdırma materialı;

-Ağırlıq mərkəzinin yerinin dəyişməsi;
-İy (qoxu);
-Cingilti və tıqqıltı səsləri.

## 8. İçərisində partlayıcı qurğu (maddə) ehtimalı olan poçt göndərişləri ilə davranma

**8.1.**Şübhəli poçt göndərişinin içərisində partlayıcı və ya alışdırıcı mexanizm qoyulubsa, o elə formada qablaşdırılır ki, partlayıcı və ya alışdırıcı mexanizm yalnız poçt göndərişi açılarkən və ya içərisindəkilər çıxardılarkən işə düşür. Belə poçt göndərişləri daşınma və ya çatdırma zamanı aşınmaya, istilik və ya nəmişlik, həmçinin ayrı-ayrı mexanii təsirlərə məruz qalaraq öz-özünə işə düşünmə və ya partlama təhlükəsi yaradır.

**Partlayıcı qurğunun kitabın içərisinə qoyulmuş maketi.**
**8.2.** Şübhəli PG ilə rastlaşdıqda aşağıdakı qaydada hərəkət edilməlidir:
**8.2.1.**Zərfin və ya paketin ağzının açılmaması cıhd edilməməli və ağzı açılmamalıdır;
**8.2.2**. Təkrar yoxlanılması üçün o, başqa şəxslərə verilməməlidir;
**8.2.3.** Əyilməməli, bükülməməli, qatlanmamalıdır;
**8.2.4.** Tullanmamalı və ya atılmamalıdır;
**8.2.5.** Qızdırıcı cihazların yaxınlığında saxlanmamalıdır,
**8.2.6.** Sudan qorunmalı və nəmişlik yerdə saxlanılmamalıdır;
**8.2.7**. Darısqal yerdə (çərçivədə) saxlanmamalıdır;
**8.2.8.**Üzəri hər hansı bir əşya ilə örtülməməlidir;
**8.2.9.** Digər poçt göndərişləri ilə bir yerdə saxlanmamalıdır;
**8.2.10.** Adamlar Pg-nin saxlanıldığı yerdən dərhal kənar yerə təxliyyə (evakuasiya) edilməlidir;
**8.2.11.** Tabeçilik üzrə rəhbərlik dərhal məlumatlandırılmalıdır;
**8.2.12.** FHN- in əməkdaşları dərhal hadisə yerinə dəvət edilməlidir.
**8.2.13.** Poçtun təhlükəsizliyi ilə məşğul olan içşilər dərhal xəbərdar edilməlidir;
**8.2.14.** Qüvvədə olan qaydaların tələblərinə tam dəqiqliyi ilə riayət edilməlidir.

## 9. Partlayıcı qurğularla əlaqədar axtarış tədbirləri

**9.1.** Mütəmadi olaraq çeşidləmə əməliyyatları zamanı vüzual baxışla axtarış tədbirləri həyata keçirilir.
**9.2.** Partlayıcı qurğularla əlaqədar təhlükə barədə aşağıda göstərilən mənbələedən hədə daxil olduqda ( telefon, məktub və ya digər vəsaitlərlə) axtariş tədbirləri həyata keçirilir:
**9.2.1.** Terroçulardan, peşəkarlardan;
**9.2.2.** Narazı işçilərdən (keçmiş və ya hal- hazırda xidmətdə olanlardan);
**9.2.3.** Ruhi cəhətdən müvazinətsiz adamlardan;

**9.2.4.** Uşaqlardan ( məktəb tətilləri zamanı)
**9.2.5.** Ekstremist insanlardan, dini təməlçilərdən, neonasist insanlardan və s.
**9.2.6.** Xüsusi xidmət orqanlarından , digər poçt administrasiyalarından, Ümumdünya Poçt İttifaqından, İNTERPOL- dan və s. beynəlxalq təşkilatlardan;
**9.2.7.** Hər-hansı hadisə zamanı (partlayıcı qurğu çatdırma məntəqəsində və ya tranzit məntəqəsində işə düşdükdə );
**9.2.8.** Tranzitlə keçən (partlamayan) şübhəli bağlama müəyyən edilərkən.
**9.3.** Partlayıcı qurğunun harada olması məlum olmadığı halda, aşağıda göstərilən qaydada hərəkət etmək lazımdır:
**9.3.1.** Axtarış binanın çöl tərəfindən başlayaraq tədricən içərilərə tərəf hərəkət etməklə aparılmalıdır;
**9.3.2.** Binanın ətrafında olan su borularına, pəncərələrin altına, ağacların ətrafına, zibil yeşiklərinə və s. baxılmalıdır;
**9.3.3.** Binanın içərisində axtarış aparılarkən asan və mümkün olan yerlərə ( dəhliz, ayaqyolu, pilləkənlərin altı, lift, telefon kabinəsi, divar şkafları, iclas zalı, vitrinlər, paltar şkafları və cinayət üçün əlverişli olan digər yerlər) baxılmalıdır;
**9.3.4.** Axtarış həmişə aşağıdan (zirzəmidən) başlayaraq yuxarıua ( binanın damı da daxil olmaqla) doğru həyata keçirilməlidir;
**9.4.** Axtarış aparılarkən operativ hərəkət edilməlidir, lakin bu operativlik axtarışın diqqətli aparılmasına mane olmamalıdır.
**9.5.** Partlayıcı qurğunun müəyyənləşdirilməsi və axtarış zamanı aşağıdakı təhlükəsizlik tədbirlərinə riayət edilməlidir:
**9.5.1.** Bir neçə partlayıcı qurğunun ola biləcəyi nəzərə alınmalıdır;
**9.5.2.** Axtarış prossesi imkan daxilində sürətlə aparılmalıdır;
**9.5.3.** Kəskin (qəfil) hərəkətlər edilməməlidir;
**9.5.4.** Ehtiyatsızlıq və artıq dərəcədə özünəinamlılıq göstərilməməlidir;
**9.5.5.** Partlayıcı qurğunun ehtimal edildiyi yerin yaxınlığında siqaret çəkilməsinə, radioötürücü və ya mobil telefonun istifadəsinə imkan verilməməlidir;
**9.5.6.** Bağlama bərkidilmiş şübhəli balaca qutuya və ya silindr formalı əşyaya toxunulmamalıdır;
**9.5.7.** PG suya salınmamalıdır.
**9.6.** Adamlar təhlükəli yerdən aşağıda göstərilən qaydada uzaqlaşdırılmalıdır:
**9.6.1.** Öncə onların hərəkət edəcəyi marşrut əvvəlcədən yoxlanılmalıdır;
**9.6.2.** Vəziyyətdən asılı olaraq və ya FHN- nin müvafiq qurumlarının təlimatına uyğun olaraq adamların təhlükəli zonadan təxliyyəsi təmin edilməlidir;
**9.6.3.** Təxliyyənin səbəbi partlayış təhlükəsi olduqda, partlayış zamanı ziyanın minimuma endirilməsi üçün imkan daxilində qapı və pəncərələr açıq qoyulmalıdır ( əgər təhlükə alışdırıcı qurğudan ibarətdirsə, onda bir qayda olaraq bütün qapı və pəncərələri örtmək lazımdır). Təxliyyə olunanların qapı və pəncərələrdən aralı durmaları onlardan tələb edilməlidir;
**9.6.4.** Tərk edilmiş zonaya, yalnız şübhəli əşyalar zərərsizləşdirildikdən, axtarış başa çatdıqdan və FHN- nin aidiyyətı qurumlarının təhlükənin sovuşmasını elan etməsindən sonra qayıtmaq olar.

## 10. Poçtalyonların şəxsi təhlükəsizlik tədbirləri

**10.1.** Poçtalyonlara qarşı quldur həmlələrinin qarşısının alınması və pul vəsaitlərinin yüksək səviyyədə qorunub saxlanılması məqsədilə aşağıdakı qaydalara riayət edilməlidir:
**10.1.1.** Çatdırma sahəsinə çıxmazdan öncə elə bir marşrut seçilməlidir ki, poçtalyon daim piyadaların diqqət mərkəzində olsun. Pul vəsaitinin çatdırılması üçün gizli cibləri olan asma çantalardan, xüsusi formada tikilmiş önlükləedən və digər geyim əşyalarından istifadə edərək, pullar hər bir müştəri üçün ayrı -ayrı zərflərə qoyularaq müxtəlif yerlərdə saxlanılmalıdır. Standart poçt çantaları cinayətkar elementlərin diqqətini özünə cəlb etdiyi üçün, pul vəsaitlərinin çatdırılması zamanı bu çantalardan istifadə edilməməlidir;
**10.1.2.** Sahələr üzrə çatdırılacaq pulun məbləği, çatdırmanın müddəti və marşrutu barədə poçtalyon, onu əhatə edən adamların yanında daşınmamalıdır;
**10.1.3**.Şəxsi təhlükəsizlik naminə nağd pulları qarışıq sahələrdə ikilikdə ( digər poçtalyonla) çatdırmalıdır, eyni zamanda özünü müdafiə məqsədilə poçtalyonda qaz balonları olmalıdır;
**10.1.4.** Çatdlrma sahəsinə çıxmazdan öncə gedəyi marşrut və alıcıların növbəliliyi barədə şöbə rəisinə məlumat verməlidir;
**10.2.** Marşruta çıxışın ilk mərhələsində pul vəsaitinin çəxluğunu və cinayətkarlar tərəfindən basqın ehtimalının çox olduğunu nəzərə alaraq poçtalyonlar aşağıdakı qaydalara riayət etməlidirlər:
**10.2.1.** PŞ-dən çıxarkən yolboyu və yaşayış binalarının dalanlarına daxil olmazdan öncə, ətrafındakı adamlarln onu izləməsi və özlərini şübhəli aparması hallarının olub-olmamasına diqqət etməlidir;
**10.2.2.** Yolboyu ayrı-ayrı adamlar tərəfindən ona qarşı şübhəli əlamətlərin aşkar olunduğu hallarda dərhal PŞ- yə qayıtmalı və marşrutu dəyişərək adamların çox olduğu yerə çıxıb yaranmış vəziyyət barədə telefonla polisə və ya iş yerinə məlumat verməlidir;
**10.2.3.** Telefonla danışarkən qəfləti hücumdan qorunmaq və cinayətkarın nişanələrini ( əlamətlərini) yadda saxlanmaq üçün , üzünü yoldan keçənlərə tərəf tutmalı, yolboyu marşrutu və pulun alıcılara çatdlrma növbəliyini dəyişdirməlidir (imkan daxilində bu barədə şöbə rəisini məlumatlandırmalıdır);
**10.2.4.** Sahədə vaxta qənaət etmək məqsədilə marşrutu qısaltmadan adamların daha gur hərəkət etdiyi yerlərlə getməli, işıqlandırılmış küçə və cığırlardan keçən marşrutlardan istifadə etməlidir;
**10.2.5.** Qarət üçün münasib olan və adamların seyrək olduğu marşrutlardan ( çöllük, qeyri-yaşayış tikililəri, bağçaları, yeraltı keçidlər) istifadə etməməlidir;
**10.2.6.**Binanın dalanına daxil olarkən ətrafına diqqət etməli, eyni zamanda dalanın önündə şübhəli şəxslərin peyda olub- olmamasına fikir verməli, təhlükə hiss etdikdə yaxın mənzilin qapısını döyməlidir;
**10.2.7.** Şübhəli şəxslərlə birlikdə liftə minməməli, əgər o, artıq liftə daxil olubsa, bu halda üzünü ona tərəf çevirməli və onun hərəkətini nəzərində saxlayaraq liftin yaxın mərtəbəsinin düyməsini basmalıdır;

**10.2.8.** Çətin və təhlükə vəziyyət yarandıqda özününmüdafiə vasitə kimi ucadan qışqıraraq kömək çağırmalıdır.Köməyə çağırarkən ətrafdakı adamları özünə cəlb etmək məqsədilə yanğının, qaz sızmasının və ya su basma halının baş verdiyini deməlidir;
**10.2.9.** İctimai nəqliyyatla gedərkən ön qapıdan daxil olub sürücüyə yaxın əyləşməli, təhlükə yaradan şəxslərlə qarşılaşdıqda adamların çəx olduğu dayanacaqda düşərək növbəti marşrutunu müəyyənləşdirməlidir;
**10.2.10.**Təqib olunduğunu hiss etdikdə marşrutu dəyişərək adamların çox hərəkət etdiyi yerlərə getməli, fotorobotun tərtib edilməsi üçün onu təqib edən şəxsin əlamətlərini, geyimini, bədən uruluşunu, yerişini və s. yadda saxlamalıdır.
**10.3.**Cinayətkarların ərazidəki ünvan sahibləri ilə əlbir olaraq onlan mənzillərindən istifadə edə biləcəyi hallarda aşağıdakılara riayət etmək lazımdır:
**10.3.1.**Şübhə yaradan kənar şəxslər ( xüsusilə kişi cinsi) olduqda, pulunun qutardığını və ya həmkarında olduğu üçün və onun qonşu mənzildə pul verərkən k mənzili tərk etməlidir;nəyə görəsə gecikdiyini bəhanə gətirərək mənzili tərk etməlidir;
**10.3.2.**Zəhərləyici və ya digər güclü təsiredici maddələrdən yayınmaq üçün ona təklif edilən istənilən qida məhsullarından imtina etməlidir;
**10.3.3.**Heç vaxt pulları yenicə paylamağa başladığını deməməli, özünü elə aparmalıdır ki, guya yorulmuşdur və bu müştəri axırıncıdır;
**10.3.4.**Yanındakı adama onda olan pulun məbləğini bildirməməlidir;
**10.3.5.** Əgər alıcının hərəkətlərində hər hansı bir səbəbdən qarətçilik meyli yaranarsa, bu halda poçtalyon mənzili tərk edərək qonşuları çağırmalı və pulu onların hüzurunda verməlidir.

***"Azərpoçt"MMC-nin***
***Keyfiyyətə Nəzarət Şöbəsinin rəisi***
***Novruz Z. Qalayev***